Action funded by
the European Union

EU4Environment
Armenia, Azerbaijan, Belarus, Georgia, Republic of Moldova, Ukraine

# Dairəvi İqtisadiyyat və yeni inkişaf imkanları



## Azərbaycanda KOB-lar arasında Resurs Səmərəli Təmiz İstehsalat

### The EU4ENVIRONMENT

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən EU4Environment layihəsi altı ŞT ölkəsində: Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada təbii kapitalın qorunması və daha yaxşı istifadəsi, insanların ekoloji rifahının artırılması və iqtisadi artımı stimullaşdırmaq məqsədini daşıyır. Bu fəaliyyət, ekoloji və iqtisadi subyektləri birləşdirərək, planlaşdırmanın və investisiyaların daha “yaşıllaşdırılması” üçün siyasət və qanunvericilliyə yenidən baxılmasına, bununla da, yeni iş modellərinin qəbulu ilə innovativ texnologiyaların tətbiqi və “yaşıl” iş yerlərinin yaradılmasına dəstək verir. Eyni zamanda, ətraf mühitin, qorunan ərazilərin və meşələrin daha yaxşı idarə edilməsi və davamlı ticarət təşviq edilir. 2019-2022-ci illəri əhatə edən layihədə, hədəflər, prioritetlər və ümumi əməkdaşlıq məqsədlərinə uyğun olaraq tərəfdaş ölkələr tərəfindən müəyyənləşdirilmiş nəzərəçarpacaq nəticələrin əldə edilməsinə 5 icraçı təşkilat- OECD, UNECE, UNEP, UNİDO və Dünya Bankı cəlb edilmişdir.

RSTİ yanaşmasının səmərəliliyinin nümayiş olunduğu və Azərbaycanda iştirakçı KOB-larda resurs, enerji və su istehlakının azaldılması ilə nəticələnən keçmiş EaP GREEN Proqramının (2013-2017) əldə etdiyi mühüm nailiyyətlərə əsaslanaraq, KOB-ların Resurs Səmərəli Təmiz İstehsalata keçidinin dəstəklənməsi üçün UNİDO təbliğat və Milli potensialın inkişaf etdirilməsi fəaliyyətlərini davam etdirəcəkdir. Bundan əlavə, UNİDO müəssisələr, hökumət və vətəndaş cəmiyyəti institutları arasında Dairəvi Iqtisadiyyatın imkanlarını və üstünlüklərini artırmaq üçün dairəvi dəyər zəncirlərinin yaradılmasına dəstək ola biləcək imkanları müəyyənləşdirəcəkdir.

EU4Environment fəaliyyətləri beş prioritet nəticəni əhatə edir:




2-ci Nəticə-“Dairəvi İqtisadiyyat və Yeni İnkişaf İmkanları” çərçivəsində UNİDO, Azərbaycanda və digər ŞT ölkələrində “KOB-lar arasında Resurs Səmərəli Təmiz İstehsalat”ın miqyasını genişləndirərək KOB-ların fəaliyyətində RSTİ və eko-innovasiya yanaşmalarından istifadə potensialının artırılması üzərində işləyəcəkdir. Azərbaycanda təxminən 35 müəssisəyə biznes modellərinin yenidən işlənməsinə köməklik göstəriləcəkdir. RSTİ metodologiyası və yanaşmaları üzrə təlim keçmiş yerli mütəxəssislər daha sonra seçilmiş şirkətlərdə qiymətləndirmə həyata keçirəcəklər. RSTİ metodologiyasının tətbiqi məhsuldarlığı, məhsul keyfiyyətini və KOB-ların rəqabət qabiliyyətini artırmağa kömək edəcəkdir. Layihə Azərbaycanda əldə edilmiş biliklərin uzunmüddətli davamlılığını təmin edəcəkdir.

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | WORLD BANK GROUP

# Azərbaycanda KOB-lar arasında
# Resurs Səmərəli Təmiz İstehsalın miqyası artır




***RSTİ Klublarının dəstəklənməsi***

Qarşılıqlı təlim mexanizminin təşviqi və sənaye müəssisələrinin məhsuldarlığının artırılması məqsədilə iki bölgədə RSTİ klubları yaradılacaqdır. Bu fəaliyyət:

- ✓ RSTİ prinsiplərinin öz fəaliyyətlərinə inteqrasiyası məqsədilə KOB-lara daxili potensial yaratmağa dəstək verəcək, məhsuldarlığı artıran və fəaliyyətləri “yaşıllaşdıran” iqtisadi və ekoloji həllərin müəyyənləşdirəcəkdir
- ✓ RSTİ Klubları vasitəsilə ölkədə RSTİ demonstrasiyası miqyasını artıracaq- yerli qurumlarla əməkdaşlıq çərçivəsində 2 regionda qarşılıqlı təlim mexanizmi yaradılacaqdır

***Dairəvi İqtisadiyyat***

Layihə, Dİ prinsiplərinin tətbiqi kimi, sənaye fəaliyyəti nəticəsində formalaşan tullantı mənbələrini qiymətləndirməyi və təkrar emal variantlarını (tullantıdan resursa) müəyyənləşdirməyi hədəfləyir. Dİ təcrübələri sənaye "tullantı xəritələri"ndən istifadə etməklə pilot olaraq tətbiq ediləcəkdir. Bu fəaliyyət aşağıdakılara fokuslanacaq:

- ✓ Dİ anlayışları və yanaşmaları haqqında məlumatlılığın artırılması
- ✓ İstehsalat fəaliyyəti nəticəsində formalaşan tullantı mənbələrinin qiymətləndirilməsi
- ✓ Təkrar emal variantlarının müəyyənləşdirilməsi
- ✓ İki pilot regionda tullantı xəritələrinin hazırlanması

***Milli Ekspertlərin təlimi***

RSTİ-nin tətbiqi üzrə Milli potensialın daha da artırılması aidiyyəti qurumların gücləndirilməsi, RSTİ-nin faydaları barədə məlumatlılığın artırılması və bunun ümummilli miqyasda necə həyata keçirilə biləcəyi barədə məlumat mübadiləsi yolu ilə həyata keçiriləcəkdir.

- ✓ Nümayiş şirkətlərinin əməkdaşları və digər peşəkarlar üçün RSTİ üzrə praktiki təcrübə və təlimlər
- ✓ Yerli əmək bazarını genişləndirəcək sənaye mütəxəssisləri arasında davamlı öyrənmə prosesini inkişaf etdirmək

***Əlavə RSTİ Qiymətləndirilməsi***

Seçilmiş sənaye müəssisələrinin RSTİ üzrə qiymətləndirmələri ölkədə metodologiya nümayişlərinin sayını artıraraq və aşağıdakıları hədəfə alaraq həyata keçiriləcəkdir:

- ✓ Enerji, su və xammal istehlakının azaldılması, formalaşan tullantı və emissiyanın azaldılması üçün səmərəli tədbirləri tətbiq edən şirkətlərin sayının artırılması
- ✓ RSTİ fəaliyyəti ilə dəstəklənən RSTİ qənaət kataloqunun və hər bir şirkət üçün monitorinq planlarının hazırlanması
- ✓ Biznesin böyüməsi üçün zəruri strategiya olan RSTİ-nin tətbiqi məqsədilə şirkətlərdə potensialın yaradılmasına töhfə vermək

***Məlumatlılığın artırılması & Bilik Mübadiləsi***

Səmərəli əlaqə vasitələri və kanallarla Azərbaycanda Dİ/ RSTİ üzrə Milli potensialın və əməkdaşlığın gücləndirilməsi:

- ✓ Maraqlı tərəflər və aidiyyəti hədəf qruplar arasında Dİ və RSTİ konsepsiyalarının, metodologiyalarının, alətlərin və layihə nəticələrinin dəstəklənməsi və təbliği
- ✓ RECP xidmətləri üzrə tələbi daha da inkişaf etdirmək məqsədilə ölkəyə xas RSTİ imkanları və üstünlükləri barədə məlumatlılığın və anlayışın artırılması
- ✓ Milli peşəkar şəbəkələr vasitəsilə davamlı texniki təcrübə mübadiləsi və müvafiq bilik idarəçiliyinin təmin edilməsi;
- ✓ Mütəxəssislər, müəssisə sahibləri və nümayiş şirkətlərinin işçiləri arasında məlumat mübadiləsi

## Ətraflı məlumat üçün əlaqə

**United Nations Industrial Development Organization**
Department of Environment
Ms. Carolina Gonzalez
Tel: +43 1 26026-0, Fax: +43 1 26926-69
E-mail: c.gonzalez-mueller@unido.org
Web: www.unido.org

**Azerbaijan RECP component of the EU4Environment Action**
National Coordinator
Mr. Yashar Karimov
Tel: +994554553544
E-mail: yashaoper@gmail.com
Website: www.eu4environment.org/